**“Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1220-VQD nömrəli Qanununun tətbiqi və “Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1220-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. “Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, 11, maddə 666; 2001, 7, maddə 459; 2003, 10, maddələr 546, 571; 2004, 8, maddə 617, 12, maddə 1005; 2006, 9, maddə 743; 2008, 8, maddə 719; 2009, 4, maddə 226, 8, maddə 630; 2010, 7, maddə 606; 2011, 6, maddə 510; 2012, 5, maddə 423, 11, maddə 1079; 2014, 9, maddə 1043; 2015, 2, maddələr 110, 140, 6, maddə 707, 10, maddə 1116; 2016, 3, maddə 456, 4, maddələr 662, 666, 6, maddə 1062, 11, maddə 1839; 2017, 5, maddə 758, 8, maddə 1521; 2018, 2, maddələr 169, 197, 4, maddə 677; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 151 nömrəli və 6 iyul tarixli 180 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.7-ci bənddə “Qanunun” sözündən sonra “30-cu maddəsinin VIII hissəsinin ikinci abzasının üçüncü cümləsində, üçüncü abzasının birinci cümləsində, dördüncü abzasının birinci cümləsində,” sözləri əlavə edilsin;

3.2. aşağıdakı məzmunda 2.7-1-ci bənd əlavə edilsin:

“2.7-1. həmin Qanunun 30-cu maddəsinin VIII hissəsinin dördüncü abzasının birinci və ikinci cümlələrində “müvafiq icra hakimiyyəti orqanının informasiya sistemi” dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin “ASAN ödəniş” sistemi nəzərdə tutulur;”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 16 iyul 2018-ci il
207